# İƏT-in qətnaməsi diplomatiyamızın uğurudur

21-22 iyun 2025-ci il tarixlərdə İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İstanbul şəhərində keçirilən Nazirlər Şurasının toplantısı öz işini başa çatdırıb və toplantıda 5 qətnamə qəbul edilib. İƏT çərçivəsində ilk dəfə olaraq Qərbi Azərbaycanla bağlı bəyannamə də qəbul olunub. "Hazırkı Ermənistan ərazisindən sistematik şəkildə didərgin salınmış azərbaycanlıların geri qayıdış hüququ" adlı Bəyannamədə qərbi azərbaycanlıların tarixi-əzəli torpaqlarından deportasiyaya məruz qalması reallığı, onların təhlükəsiz, sülh və ləyaqətlə geri qayıdışının beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olması bir daha təsdiqlənib.



Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, İslam Əməkdaşlıq Təşkilatı həmçinin dünyada islam irsinin qorunmasını təşviq edir. İndiki Ermənistan ərazisində azərbaycanlıların uzun illər ərzində yaşayıb yaratdığı və məcburən qoyub getdiyi islam mədəni irsinə aid olan tarixi abidələrin, məscidlərin talan edilməsi, onların viran vəziyyətə qoyulması həqiqətən narahatlıq doğurur. Bu barədə beynəlxalq ictimaiyyətin də Azərbaycanın haqlı narazılıqlarına və ədalətli tələblərinə səs verməsi, onun səsinin duyulması o deməkdir ki, həqiqətən, dünya birliyi qərbi azərbaycanlıların geri qayıdışı ilə bağlı məsələdə Azərbaycanla həmrəydir. Bəyannamə İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin də bu məsələdə həmrəy olduğunu bir daha göstərir. "İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində ötən ilin may ayında Qambiyada keçirilən assambleya görüşündə də qərbi azərbaycanlıların didərgin salınması məsələsinə toxunulub və "Banjul qətnaməsi"ndə bu məsələlər öz əksini tapıb. Qambiya Respublikasında İslam Əməkdaşlıq Təşkilatının (İƏT) 15-ci İslam Sammitində 2026-cı ildə İƏT-in 16-cı İslam Sammitinin Azərbaycanda keçirilməsi təsdiqlənib. Bu məsələnin beynəlxalq müstəviyə çıxarılması Qərbi Azərbaycan İcması və İƏT tərəfindən belə bir təşəbbüs göstərilərək bəyannamə qəbul edilməsi, eyni zamanda mədəni irsimizlə bağlı qətnamənin qəbulu bu məsələdə Azərbaycanın prinsipiallığını göstərir. Qərbi Azərbaycandan zorla çıxarılmış 300 mindən çox soydaşımızın siyasi məsələlərə görə Ermənistan tərəfindən həmin dövrdə etnik təmizləməyə məruz qalması onların öz tarixi ata-baba yurdlarına geri qayıtmaq hüququnun olmaması demək deyil. Əlbəttə ki, bu hüquqlar BMT-nin bir çox beynəlxalq sənədində öz əksini tapıb", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, qərbi azərbaycanlıların geri qayıdışı ilə bağlı məsələnin daimi olaraq beynəlxalq müstəviyə çıxarılması, o cümlədən Asiya Parlament Assambleyasının ölkəmizdə keçirilən 15-ci sessiyası çərçivəsində "Bakı Bəyannaməsi" qəbul edilərkən qərbi azərbaycanlıların haqlı tələblərinə diqqət çəkilməsi yeni dünya düzənində Azərbaycanın milli maraqlarına əsaslanan mövqeyinin nümayişidir. Bu, beynəlxalq siyasi arenada Azərbaycanın həssaslıqlarının nəzərə alınmasını təbliğ edir. Ermənistan rəhbərliyinin və Ermənistan tərəfinin qərbi azərbaycanlıların haqlı tələblərinə qarşı heç bir adekvat reaksiya verməməsi və bu qayıdış hüququnu tanımaması İƏT Bəyannaməsində qınanılır. Eyni zamanda Azərbaycan-Ermənistan arasında normallaşma və sülh prosesinin getməsi təqdir edilir. Bu da beynəlxalq ictimaiyyət tərəfindən məsələlərə uyğun qiymətin verilməsini göstərir.

P.Vəliyeva düşünür ki, Qərbi Azərbaycana qayıdış məsələsi nə qədər çox və məhsuldar şəkildə beynəlxalq müstəviyə çıxarılarsa, bunun bir ərazi iddiası olmaması, əslində, insan hüquqları ilə bağlı məsələ kimi təlqin edilməsi bir çox dezinformasiyanın və hibrid təhdidin də qarşısını alar: "İƏT, BMT, Asiya PA, Türk PA kimi beynəlxalq təşkilatların ölkəmizin haqq səsini dəstəkləməsi ilə informasiya mübarizəsində üstünlük əldə edilə bilər. Biz Qərbi Azərbaycana sülh içində, ləyaqətlə və təhlükəsiz şəraitdə geri qayıdacağıq. Hesab edirəm ki, qərbi azərbaycanlıların geri qayıdışında beynəlxalq diplomatiyanın böyük rolu var və Azərbaycan bu istiqamətdə öz səylərini daim gücləndirməlidir".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 25 iyun (№ 129).- S.13.